Jl. Mas Putih Blok D 29
Grogol Utara Kebayoran Lama
Jakarta Selatan 12210
Tel: 5491939
Fax: 5491745
E-mail: azerbembjkt@u.net.id

Azərbaycan Respublikasının Səfirliyi
Cakarta

Press-reliz

Azərbaycan Respublikasının Bakı şəhərində 26-28 aprel 2007-ci ildə İslam Konfransı Təşkilatı (İKT) ilə birgə "Dözümlülüyün və Qarşılıqlı Anlaşmanın İnkişafında Mətbuatın Rolu" adlı konfrans keçirilmişdir.

Konfransda 200-dən artıq mətbuat və din üzrə mütəxəssis, rəsmi şəxslər, elm xadimi, tanınmış jurnalist, 45 ölkədən QHT nümayəndələri və BMT, AB, ATƏT, BQXC, YUNİSEF, YUNESKO, İSESKO və Ümumdünya Bankının nümayəndələri iştirak etmişlər.

Konfransda İKT-nin, üzv ölkələrin hökumətlərinin, ictimaiyyət və mətbuatın, rabitə və mətbuat işçilərini hazırlayan institutların, beynəlxalq təşkilatların və tanınmış şəxslərin dinlər və mədəniyyət icmaları arasında dialoq və qarşılıqlı anlaşma əldə edilməsinə necə tövhə verə biləcəkləri ideyaları müzakirə edilmiş, cəmləşdirilmişdir.

Azərbaycan Respublikası hal-hazırda İKT Xarici İşlər Konfransına sədrlik edir.

Sammitin açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müraciəti oxunmuşdur.

Konfransda İndoneziyanı Xarici İşlər Nazirliyinin İnformasiya və Mətbuat Departamentinin Direktoru vəzifəsini icra edən Dalton Sembiring və "The

Jakarta Post" qəzetinin Xarici Bölmə üzrə Redaktoru Veeramalla Anjaiah təmsil etmişlər.

30 aprel 2007-ci il